*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 may 2015-ci il № 34 (1950) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti xanım Laura Takın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının növbəti toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı, tədbirin təşkilati işlərinin yüksək səviyyədə aparıldığı qeyd olundu.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Pakistan İslam Respublikasının maliyyə, gəlir, iqtisadi məsələlər, statistika və özəlləşdirmə naziri Mohammad İshaq Darı qəbul edib.***

***Nazir Mohammad İshaq Dar Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəsinin Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiyini və bu dəstəyin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi.***

***Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığımızın da bu səviyyəyə çatdırılmasının önəmini qeyd etdi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının da yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev Xocalı soyqırımı ilə bağlı Pakistan parlamentində qəbul edilən qətnaməyə görə təşəkkürünü bildirdi.***

* * *

***✓Mayın 4-də Bakıda Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının rəsmi açılış mərasimi keçirilib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***

***Dövlətimizin başçısı tədbirdə nitq söylədi.***

***Sonra Azərbaycanın qədim tarixi, əlverişli coğrafi mövqeyi, zəngin mədəni irsi, son illərdə əldə etdiyi nailiyyətlər barədə təqdimat oldu.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Yaponiya Baş nazirinin müavini, maliyyə naziri Taro Asonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Söhbət zamanı Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, informasiya-kommunikasiya texnologiyaları, turizm, humanitar və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

**AZƏRTAC-ın materialları əsasında**

# Ulu öndərimiz Azərbaycan Silahlı Qüvvələrinin yaradıcısıdır

General-polkovnik Zakir HƏSƏNOV:

*“Ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyəti ordumuzun şəxsi heyəti üçün ən layiqli örnəkdir”.*



***Hər bir xalqın taleyində təcrübəli dövlət xadimlərinin əhəmiyyətli rolu olur. Bu danılmaz həqiqətdir ki, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olub. Özünün dediyi kimi, nə qədər müstəqil Azərbaycan dövləti var, onun adı əbədi yaşayacaqdır. Bu günlər dahi rəhbərin anadan olmasının 92-ci ildönümü xalqımız tərəfindən qeyd olunur. Hər bir şəhər və rayonumuzda insanlar əbədiyaşar lideri böyük ehtiramla yad edirlər. Silahlı Qüvvələrimizin də şəxsi heyəti ordu quruculuğunda əvəzsiz xidmətləri olan dahi dövlət xadiminin xatirəsini əziz tutur, onun ölməz ideyalarını yaşatmağı özünə müqəddəs borc bilir.***

Azərbaycan öz müstəqil dövlətini yenidən yaratdığı ötən əsrin 90-cı illərində nizami və döyüşkən ordunun olmaması torpaqlarımızın 20 faizinin erməni silahlı bölmələri tərəfindən işğal edilməsinə imkan yaratdı. Güclü havadarlarına arxalanan, əzəli torpaqlarımıza göz dikmiş erməni faşistləri tərəfindən Dağlıq Qarabağ və ona bitişik yeddi rayonumuz işğal edildi, respublikamızın ərazi bütövlüyü hərbi təcavüzə məruz qaldı.

Keçmiş ölkə rəhbərliyinin dövləti idarəetmə təcrübəsinin olmaması, Ermənistanla müharibədə aydın, düşünülmüş strateji xətt yeridə bilməməsi, həmçinin ölkədə hökm sürən hərc-mərclik ordu hissələrində də mənəvi-psixoloji iqlimə mənfi təsir göstərmişdi. Hərbi kollektivlərdə intizamsızlıq, özbaşınalıq hökm sürürdü və belə amillərin nəticəsi kimi cəbhədə uğursuzluqlar baş verirdi.

1993-cü ildə xalqın təkidi ilə təcrübəli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması siyasi və iqtisadi sahələrdə olduğu kimi, orduda da ciddi islahatların həyata keçirilməsi üçün dönüş nöqtəsi oldu. Əslində böyük öndərin ordu quruculuğundakı düşünülmüş siyasətinin bünövrəsi lap əvvəlki dövrə, Sovet zamanında onun Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. 1970-ci illərin əvvəllərində Heydər Əliyevin siyasi qətiyyəti ilə Bakıda ibtidai hərbi məktəbin - indiki C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması ilə Azərbaycanda milli hərbi kadr hazırlığının əsası qoyulmuşdu. Bu gün müasir ordumuzun inkişafında xidmətləri olan təcrübəli general və zabitlərin böyük əksəriyyəti məhz həmin məktəbin məzunlarıdır və onlar Heydər Əliyev məktəbinin yetirmələri olduqlarına görə daim qürur duyurlar.

Ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Silahlı Qüvvələrimizin yenidən və elmi əsaslarla qurulması üçün imkan yarandı. Öncə dövlət rəhbərliyi tərəfindən orduda baş alıb gedən neqativ halların aradan qaldırılması, mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər görüldü. Hərbi intizamın, vahid rəhbərlik prinsipinin möhkəmləndirilməsi, döyüş hazırlığı problemlərinə və təlim prosesinə getdikcə daha çox diqqət yetirilməsi, ordunun maddi-texniki təminatının ilbəil yüksəldilməsi nəticəsində Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi. Ən vacib amillərdən biri olan kadr hazırlığına dövlət rəhbərliyi səviyyəsində diqqət və qayğı artırıldı.

Silahlı Qüvvələrimizin hissə və bölmələri düşmənlə təmas xəttində güclü əks hücumlara başladı və ön cəbhədə vəziyyət bizim xeyrimizə dəyişildi. Bunun nəticəsində də Ermənistan dövləti hərbi təcavüzü dayandırmağa məcbur oldu. O zaman hərbi əməliyyatlarda iştirak etmiş zabitlər danışırlar ki, dahi rəhbərin cəbhə bölgələrinə səfərləri, döyüşçülərlə keçirdiyi görüşlər orduda döyüş ruhunun yüksəlməsinə səbəb olan ən mühüm amil idi. Məhz onun gəlişindən ruhlanan əsgər və zabitlərimiz düşmən üzərinə inamla hücuma keçirdilər.

Hər bir ordunun döyüş qabiliyyətinin möhkəmlənməsində maddi-texniki təminat, hərbi təhsil, şəxsi heyətin sosial müdafiəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi kimi vacib amillər mühüm əhəmiyyət kəsb edir. Böyük dövlət xadimi Heydər Əliyev bu sahələrdə bir sıra mühüm addımlar atdı, önəmli islahatların həyata keçirilməsinə nail oldu. Məhz bunun da nəticəsində çox qısa bir müddətdə formalaşan Silahlı Qüvvələrimiz Cənubi Qafqazın lider ordusuna çevrildi.

Dahi rəhbərin yolunu davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev də ölkəmizdə ordu quruculuğunu daim diqqətində saxlayır. Özünün də qeyd etdiyi kimi, orduya diqqət və qayğı onun siyasi kursunun başlıca istiqamətlərindən biridir. Azərbaycanın qədim və əzəli torpaqlarının işğaldan azad edilməsi və bu məqsədlə Silahlı Qüvvələrin döyüş qabiliyyətinin daha da artırılması bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji əhəmiyyətli məsələlərdəndir.

Dövlət rəhbərliyinin uğurlu ordu quruculuğu siyasətindən ruhlanan hərbi qulluqçularımız da gündəlik döyüş tapşırıqlarını məsuliyyətlə icra edərək, təlim və məşqlərdə fəallıq göstərirlər. Şübhəsiz, müasir ordumuzun yaradıcısı olan ümummilli lider Heydər Əliyevin ideyalarına sədaqətli olmaq, onun qiymətli ömür yolundan nümunə götürmək və ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin etimadını layiqincə doğrultmaq Silahlı Qüvvələrimizdə xidmət edən hər kəsin ən vacib vəzifəsidir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordunun şəxsi heyəti ilə görüşlərində tövsiyə etdiyi kimi, "ümummilli liderimizin həyat və fəaliyyəti bu gün Silahlı Qüvvələrimizin hərbi qulluqçuları üçün ən layiqli örnəkdir".

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

## Azərbaycan-Serbiya parlamentlərarası əlaqələri müzakirə edilib

Mayın 4-də Serbiya Tərəqqipərvər Partiyasının nümayəndə heyəti Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimizin dostluq münasibətlərindən danışılıb, qanunverici orqanlar arasında əlaqələrin daha da möhkəmləndirilməsi ilə bağlı müzakirələr aparılıb.

Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, deputat Məlahət İbrahimqızı bu cür görüşlərin keçirilməsinin əlaqələrimizin daha da genişləndirilməsinə töhfə verəcəyini qeyd edib. O bildirib ki, ölkələrimiz arasında imzalanmış sənədlər əlaqələrimizin genişlənməsində hüquqi baza rolunu oynayır.

İşçi qrupunun rəhbəri nümayəndə heyətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verib. Qeyd edib ki, Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkün var. Münaqişənin həlli istiqamətində BMT-nin qəbul etdiyi 4 qətnaməyə məhəl qoymayan Ermənistan beynəlxalq hüququn prinsiplərinə zidd hərəkətlər edir.

Milli Məclisin sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli görüşdə çıxış edərək parlamentlərarası əlaqələrin genişləndirilməsinin önəmindən söhbət açıb.

Nümayəndə heyətinin rəhbəri xanım Yadranka Yoksimoviç Azərbaycana səfərindən məmnun olduğunu bildirib və təmsil etdiyi partiyanın fəaliyyəti barədə məlumat verib. İki ölkə arasındakı dostluq əlaqələrindən danışan Yadranka Yoksimoviç bu cür səfərlərin münasibətlərin daha da genişləndirilməsinə töhfəsini verəcəyini söyləyib. O, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb. Qonaq, həmçinin bildirib ki, o, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlıdır və Serbiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

## Xarici diplomatlar Azərbaycan həqiqətləri barədə məlumatlandırılıblar

Mayın 4-də xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın İsveçrədəki səfirliyinin təşəbbüsü ilə Bakıda səfərdə olan İsveçrədə akkreditə olunmuş bir qrup ölkənin səfirlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir E.Məmmədyarov Azərbaycanın xarici siyasətinin prioritet istiqamətləri haqqında danışaraq, dünyanın siyasi arenasında baş verən proseslər fonunda dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsi, enerji və nəqliyyat strategiyası, iqtisadiyyatın şaxələndirilməsi, elm, təhsil və sosial sahələrdə aparılan islahatlar barədə qonaqlara məlumat verib.

Nazir E.Məmmədyarov regionda sülh və sabitliyin bərqərar olmasına başlıca maneə yaradan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, bu problemin indiyədək həllini tapmamasının səbəbinin Ermənistanın qeyri-konstruktiv mövqeyi olduğunu bildirib. O, münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistanın işğalçı qoşunlarının zəbt edilmiş Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu vurğulayıb.

Səfirlər Azərbaycanın 23 illik müstəqillik dövründə əldə etdiyi nəzərəçarpacaq uğurlar barədə təəssüratlarını bölüşərək, dünyada artıq "Azərbaycan möcüzəsi" adlanan inkişaf modelinin formalaşdığını bildiriblər. Onlar Azərbaycanda insanların azad, firavan və gələcəyə böyük ümidlə yaşadıqlarının şahidi olduqlarını diqqətə çatdırıblar.

Qonaqlar Azərbaycanın siyasi, iqtisadi, sosial sahələrdə xüsusilə son onillik ərzində qazandığı nailiyyətlərin birinci Avropa Oyunları kimi nəhəng idman tədbirlərinə ev sahibliyi etmək imkanı yaratdığını qeyd ediblər.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan-Türkiyə-Gürcüstan Silahlı Qüvvələri rəhbərlərinin görüşünün yekunlarına dair Protokol imzalanıb







***Ankarada səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 4-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbirə gedib.***

Müdafiə naziri Atatürkün məzarını ehtiramla ziyarət edib, önünə əklil qoyub və Şərəf kitabına ürək sözlərini yazıb.

Sonra Türkiyə Respublikasının Baş Qərargahında Azərbaycan-Türkiyə-Gürcüstan Silahlı Qüvvələri rəhbərlərinin birinci görüşü keçirilib.

Görüşdə üç ölkənin Silahlı Qüvvələri arasında əməkdaşlığın tənzimlənməsi məqsədilə Koordinasiya Qrupunun yaradılması qərara alınıb.

Qurumun məqsədi birgə təlimlər, kurslar və treninqlərin keçirilməsi, təhsil və tibb sahəsində əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlərin əlaqələndirilməsi olacaqdır.

Görüşün yekunlarına dair Protokol imzalanıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyində Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupu ilə görüş keçirilib





***Mayın 2-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov 9 may faşizm üzərində qələbənin 70-ci ildönümü ərəfəsində 1941-45-ci illər Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupu ilə görüşüb.***

Müdafiə naziri görüş iştirakçılarını salamlayaraq, qələbənin qazanılmasında Azərbaycanın igid oğul və qızlarının layiqli töhfəsinin olmasını, yüz minlərlə həmvətənimizin qələbə naminə canlarından keçməsini, Milli Azərbaycan diviziyalarının müharibə tarixinə parlaq səhifələr yazmasını, o cümlədən veteranların döyüşlərdə, ön və arxa cəbhədə qəhrəmanlıq, böyük fədakarlıq göstərmələrini diqqətə çatdırıb.

General-polkovnik Zakir Həsənov veteranlarımızın bu gün də Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etməsini, gənclərin orduya hazırlanmasında və Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunun yüksəlməsində səylərini əsirgəməməsini yüksək dəyərləndirib.

O bildirib ki, ümummilli lider Heydər Əliyevin bu bayrama xüsusi önəm verməsi, həmin ənənənin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən davam etdirilməsi xalqımızın tarixi qəhrəmanlığına verilən qiymətin göstəricisidir.

"Bu il yubiley tədbirlərində, Moskva şəhərində keçiriləcək hərbi paradda Silahlı Qüvvələrimizin hərbi qulluqçularından ibarət bölmə də iştirak edərək bayrağımızı uca tutacaqdır. Eyni zamanda biz bununla bütün dünyaya göstərəcəyik ki, ağır müharibə illərində siz veteranların əldə etdiyi qələbə Azərbaycan üçün nə qədər əziz və vacibdir.

Təəssüflər olsun ki, bu bayram ərəfəsində bizim üzüntümüz də vardır. Qədim və əzəli Azərbaycan torpaqları hələ də işğal altındadır.

Ancaq siz veteranlar və bütün xalqımız əmin olmalıdır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuz ən müasir silah-sursat, döyüş texnikası ilə təchiz olunub. Silahlı Qüvvələrin şəxsi heyəti gecə və gündüz döyüş hazırlığını yüksəltmək məqsədilə hərbi poliqonlarda təlimlər keçirməklə öz peşəkarlıq səviyyəsini artırır.

Cəbhədəki son vəziyyət bir daha onu göstərir ki, Silahlı Qüvvələrimiz düşməni nəzarətdə saxlamaqla, ona sarsıdıcı zərbələr endirməklə təşəbbüsə tam yiyələnib. Düşmən ordusundakı acınacaqlı durum bizə məlumdur. Xəstəliklərin sayının artması, fərarilik hallarının çoxalması, intizamsızlıq, özbaşınalıq - budur onların ordusundakı real vəziyyət. Erməni tərəfi məcbur olub səngərlərə mülki əhalini, dinc sakinləri, müxtəlif ölkələrdən muzdluları cəlb edir.

Erməni tərəfi hətta son zamanlar faşist ideologiyasına pərəstiş edən, qəddarlıqda heç də onlardan geri qalmayan daşnakları təbliğ etməklə Ermənistan dövlətinin hansı siyasi kursa üstünlük verməsini açıq-aydın nümayiş etdirir. Ancaq bu üsulların heç biri onlara kömək olmayacaqdır.

Silahlı Qüvvələrimiz işğal altında olan torpaqların azad olunmasına hazırdır. Bu məsələdə sizin də rolunuz böyükdür və önəmlidir. Yaxşı bilirsiniz ki, hər döyüş texnikasının idarə edilməsində, onun dəqiq və sərrast istifadəsində, qələbənin təmin olunmasında insan faktorunun əhəmiyyəti danılmazdır. Məhz bu səbəbdən indiki gənclərin ruh yüksəkliyinin artırılmasında, qələbə əzminin aşılanmasında, düşməni məhv etməyə, ehtiyac olarsa, canından belə keçməyə hazır olmalarında siz veteranların təcrübəsi, biliyi və bacarığı bizə bir örnəkdir və nümunədir", - deyə Müdafiə naziri qeyd edib.

Görüşdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev və digər qonaqlar dəyirmi masa arxasında ümummilli lider Heydər Əliyevin ideyalarına, dövlətə, ölkə Prezidentinə, Ali Baş Komandana həmişə sadiq olan bütün müharibələrin veteranlarının müasir mərhələdə respublikamızın ictimai-siyasi həyatında xidmətlərindən bəhs edərək tarixi qələbənin 70-ci ildönümü ilə əlaqədar Azərbaycanda keçiriləcək tədbirlər barədə söhbət aparıblar.

Görüşdə veteranlar adından Müdafiə nazirinə "Veteranların qayğıkeşi" diplomu və "Veteran həmrəyliyi" medalı təqdim olunub.

Sonda Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupuna pul mükafatının verilməsi haqqında Müdafiə nazirinin əmri elan edilib və görüş iştirakçıları xatirə şəkli çəkdiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
fotolar
çavuş
Vüsal HƏMİDOVUNDUR**

## Azərbaycan Respublikasının Müdafiə naziri "İDEF - 2015" Beynəlxalq Müdafiə Sərgisində iştirak edəcək

Türkiyə Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov "İDEF - 2015" Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün mayın 5-də İstanbul şəhərinə gəlib.

Nümayəndə heyəti sərginin pavilyonlarına baxış keçirəcək, müxtəlif ölkələrin və müdafiə sənayesi şirkətlərinin silah, texnika və hərbi avadanlıq istehsalı sahəsində əldə etdikləri nailiyyətlərlə tanış olacaqdır.

Sərginin keçirildiyi günlərdə bir sıra ikitərəfli görüşlər, o cümlədən Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Hülusi Akar ilə görüş planlaşdırılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq mayın 5-də Tərtər rayonunun Qapanlı kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, səhra köməkçiləri Jiri Aberle və Piter Svedberq keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Yevgeni Şarov və Saymon Tiller keçiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Vətənin dağ vüqarlı oğulları

***Ötən əsrin səksəninci illərinin sonlarında erməni şovnistləri yenidən fəallaşaraq "Dağlıq Qarabağın qədim erməni torpağı" olduğunu iddia edərək Azərbaycanın tərkib hissəsindən çıxarılaraq Ermənistana birləşdirilməsi üçün Sovet rəhbərliyi qarşısında məsələ qaldırdılar. Güclü havadarlarından dəstək alan erməni daşnakları məqsədlərinə çatmaq üçün müharibədən belə çəkinmədilər. Düşmən Dağlıq Qarabağı və ətrafdakı yeddi rayonumuzu işğal etməyə müvəffəq oldu. Amma bu müharibənin odu hələ sönməyib. Azərbaycan dövləti və xalqı heç vaxt erməni işğalı ilə barışmayacaq.***

Bu gün həm Ermənistanla sərhəddə, həm də onların işğal etdikləri ərazilərdə döyüş postlarımız qurulub. Cəbhədə 20 ildən artıqdı hökm sürən atəşkəs rejimi dövründə ordumuz öz mövqelərini qoruyur və düşmənin istənilən təxribatının qarşısını qətiyyətlə alır. Hər dəfə cəbhə bölgəsində söhbət etdiyim əsgər və zabitlərdən daha çox eşitdiyim söz bu olur: - Ali Baş Komandan nə vaxt əmr etsə, biz işğaldakı torpaqlarımızı qısa müddətdə azad etməyə hazırıq! Əlbəttə, bu gün nəinki orduda xidmət edən oğullarımız belə düşünür, hər bir azərbaycanlının başlıca məqsədi Vətən torpaqlarının yağılardan tezliklə azad edilməsinə öz töhfəsini verməkdir.

Bu yaxınlarda düşmənlə təmas xəttində yerləşən mövqelərdə oldum. Ön xəttə çıxmazdan öncə birliyin qərargahında zabit Qorxmaz Əbilovla görüşdüm. O, ön cəbhədə xidmət aparan əsgərlərin yüksək əhval-ruhiyyədə olduğunu söylədi. Bildirdi ki, buna nail olmaq üçün döyüşçülərin təminatına və təlim-tərbiyəsinə ciddi fikir verilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrin yay geyiminə keçməsi ilə bağlı müvafiq əmrini xatırladan zabit tabeliyində olan bütün şəxsi heyətin yeni yay səhra geyimi ilə təmin olunduğunu bildirdi. "Yaxın günlərdə şəxsi heyətin yay geyiminə keçməsi ilə bağlı sıra baxışı olacaq. Bu həm əsgərin xarici görünüşünü, həm də sıra intizamını təmin edən başlıca amildir", - deyə polkovnik-leytenant bildirdi.

...Kapitan Namiq Həmidovla ön xətdə qərarlaşan bölmələrdən birinə yola düşdük. Məlum oldu ki, Namiq bu hərbi hissədə xidmətə başqa bölgədən yeni gəlib. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin



məzunu olan zabit uzun müddət ön xətdə xidmət etdiyi üçün yetərincə təcrübəlidir.

...Xeyli dolanbac yollarla gedəndən sonra bölmələrdən birinə çatdıq. Burada kapitan Namiq Sultanov bizi qarşıladı. O dedi ki, düşmənin tez-tez atəşə məruz qoyduğu postlardan birinə gedəcəyik. Döyüş postuna yola düşürük. Bölmə komandirinin şəxsi heyətlə iş üzrə müavini olan zabit bizim döyüş postlarından, düşmənin atəş açdığı mövqelərdən danışdı. Mənə elə gəldi ki, N.Sultanov elə bu rayonda doğulub boya-başa çatıb.

Çox da uca olmayan, qarşı tərəfi aydın görünən yüksəkliyə gəlib çıxdıq. Burada davamlı müşahidə aparılır. Düşmənlə bağlı hər bir məlumat dərhal qərargaha ötürülür. Ancaq gün ərzində qarşı tərəfdən heç nə müşahidə olunmadığını bildirən baş leytenant Ramin Nuriyev düşmənin tez-tez atəşkəsi pozduğunu qeyd edir. Qarşımızda daha bir təpə var. Düşmənin müntəzəm olaraq oradan mövqelərimizə atəş açdıqlarını öyrənirəm. Təhlükə hiss edilən bu ərazi döyüşçülərimizin tam nəzarətindədir.

Ön xətdə xidmət edən oğullarımızın məişət şəraiti ilə tanış oluram. Burada əsgərlər üçün ayrıca yeməkxana, müasir əsgər yataqxanası var. Qışda otaqların qızdırılmasını təmin edən yeni istilik sistemi quraşdırılıb. Qarşımda ortaboy bir əsgər dayanıb. Hərbi etikalı olduğunu onun əyin-başından, hər an komandirin əmrinə müntəzir olmasından, özündən böyüklərə hörmət və nəvazişindən hiss etmək olurdu. Beləcə, bir müddət əsgərin davranışına və hərəkətlərinə diqqət yetirib xoş təsir bağışlayan döyüşçü ilə tanış oluram.

- Altıncı aydır hərbi xidmətdəyəm. Bu müddət ərzində komandirlərdən müfəssəl hərbi biliklər almışam, - deyə gənc döyüşçü Cavid Müxbəliyev sözünə davam edir. - Burada döyüş növbətçiliyinin ayıq-sayıq aparılması ən vacib şərtlərdəndir. Öncə müşahidənin aparılması üçün vacib olan tələbləri öyrənirik. Müşahidə postuna çıxanda ilk olaraq ərazini kəşf etməyə səy göstəririk. Hər bir oriyentirə olan məsafə də göstərilib. Düşmən haqqında məlumatı mərkəzə veririk.

Pulemyotçu əsgər daşıdığı silah haqqında yetərli məlumata malikdir. Əslən xaçmazlı olan bu döyüşçü təlim-atış zamanı həmişə fərqlənib. Buna görə də artıq komandirindən ilk təşəkkürünü qazanıb.

Sol tərəfdə mövqe tutan qumbaraatan Zinur Əliyev isə bir ilə yaxındır Vətənin keşiyində dayanır. Qax rayonunun Cəlayır kəndindən olan döyüşçü deyir ki, ha fürsət gəzirəm, erməni tankını görmürəm. "Əgər düşmən tankdan atəş açsa, onda mütləq öz payını alacaq".

Burada həmsöhbət olduğum sumqayıtlı İlkin Süleymanov, ağcabədili İntiqam Səmədov, masallılı Xankişi Quliyev, bakılı Məhəmməd Hacıyev və başqaları istənilən an düşmənin dversiya-kəşfiyyat qrupunun qarşısını qətiyyətlə almağa hazırdırlar.

Zabit N.Sultanov əsgərlərin mənəvi-psixoloji hazırlığına gəlincə bildirdi ki, son dövrlər şəxsi heyət arasında nizam-intizamın pozulma halları yoxdur. Hər bir əsgər üzərinə düşən vəzifəni yaxşı bildiyi üçün sosial ədalətin pozulması və bundan yaranan xoşagəlməz hərəkətlərin kökü kəsilib. Şəxsi heyətin tərbiyə işinə diqqət yüksəldiyinə görə bu sahədə ciddi dönüş yaranıb.

Bəli, gəldiyimiz qənaət də odur ki, əsgər döyüş vərdişlərini mənimsədiyi kimi o, nizam-intizamı da öyrənməli və döyüş vəzifəsindən irəli gələn tələblərə sözsüz əməl etməlidir. Bu isə tək bir komandirin əməyinin deyil, hər bir kəsin üzərinə düşən məsuliyyətin nəticəsidir.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Əlamətdar gün

***Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında önəmli yer tutan "N" hərbi hissəsinin yaradılmasının 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirə dəvət olunmuş ictimaiyyət nümayəndələri və hərbi qulluqçular öncə hərbi hissənin həyətində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.***





Şəxsi heyətin əlamətdar gün münasibətilə düzülüşü barədə raportu qəbul edən general-leytenant Rövşən Əkbərov əsgər və zabitləri salamlayaraq, onları əlamətdar hadisə münasibətilə təbrik edib. Şəxsi heyət hərbi orkestrin müşayiəti ilə Dövlət himnini ifa edib.

General-leytenant Rövşən Əkbərov Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə təbrik məktubunu oxuyub.

Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, YAP Şəmkir rayon Təşkilatının sədri Fəxrəddin Vəliyev və başqaları çıxış edərək ölkəmizdə həyata keçirilən hüquqi-demokratik islahatlardan və ordu quruculuğundan danışıblar. Bildiriblər ki, memarı və qurucusu dahi şəxsiyyət Heydər Əliyev olan Azərbaycan Silahlı Qüvvələri qüdrətli inkişaf yolu keçərək regionun ən güclü, müasir ordusuna çevrilib. Hazırda bu siyasi xətt Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onlar əminliklə qeyd ediblər ki, hərbi qulluqçular xalqın və dövlətin etimadını doğruldacaqlar.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya medallar, fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

Əsgər klubunda davam etdirilən tədbirdə əməkdar artistlər Azərinin və İlqar Muradovun oxuduğu mahnılar alqışlarla qarşılanıb.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Döyüş ruhu yüksək olarsa...

***Bahar çağında zümrüd kimi yaşıl örtüyə bürünən bu yerlər necə cazibədar və əsrarəngiz görsənir. Ancaq nahamar torpaq yolla yüksəkliklərin arasında yerləşən hərbi bölməyə yaxınlaşdıqca xəyallar qoynundan ayrılmalı, ətrafda cərəyan edən gerçəkliyə qayıtmalı olursan.***

Bəli, bura cəbhə bölgəsidir və atəşkəs şəraitində yaşasaq da, düşmən təmas xəttində müxtəlif silahlardan ordumuzun mövqelərini atəşə tutur. Ancaq Azərbaycan əsgərinin layiqli cavab atəşi düşməni susmağa məcbur edir.

- Ötən gün erməni bölmələri yenə mövqelərimizi atəşə tutmuşdu, - bizimlə söhbətində zabit Şükür Həmidov bildirir. - Ancaq döyüşçülərimiz təhlükəsizlik qaydalarına ciddi əməl edirlər və buna görə də itkilərimiz yoxdur. Komandanlığın əmrilə bölmələrimiz düşmənə cəsarətli cavab verir və onların atəş nöqtələrini susdurur.

Zabitin sözlərinə görə, hərbi hissədə xidmət öz axarınca davam edir. Burada döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib və bölmələrin müdafiə mövqeləri etibarlı şəkildə qorunur. Eyni zamanda bölmələr döyüş hazırlığı planında nəzərdə tutulmuş qaydada ixtisas və taktiki hazırlıq dərslərinə cəlb edilir, döyüş bacarıqlarını durmadan artırır.

Son dövrlərin bir reallığı ondan ibarətdir ki, başda Müdafiə naziri general-polkovnik Zakir Həsənov olmaqla nazirliyin yüksək rütbəli zabitləri tez-tez cəbhə bölgələrinə gələrək, ön xətdə döyüş növbəsi aparan Vətən oğulları ilə görüşür, onların qayğıları ilə maraqlanırlar.

Bu günlərdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Rüfət Əmirov da hərbi hissəyə gələrək şəxsi heyətlə görüşüb. O, səngərlərdə döyüş növbəsi aparan əsgərlərimizə baş çəkib, onların məişət şəraiti və mənəvi-psixoloji vəziyyəti ilə yaxından maraqlanıb.

- Füzuli Dram Teatrı kollektivinin iştirakı ilə vətənpərvərlik mövzusunda tədbir keçirirdik, - zabit Seymur Həbibullahov deyir. - Tədbirə yaxınlıqdakı yaşayış məntəqələrindəki məktəblərin müəllim və şagirdlərini də cəlb etmişdik. Polkovnik Rüfət Əmirov da bu tədbirə gəldi və şəxsi heyət qarşısında çıxış edərək Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illərdə qazandığı sosial-iqtisadi nailiyyətlərdən söhbət açdı. Eyni zamanda ordu quruculuğu sahəsində dövlət rəhbərliyinin gördüyü işləri diqqətə çatdırdı.



Tədbirdən sonra polkovnik Rüfət Əmirov ön xəttə yola düşüb və döyüş növbəsi aparan Vətən oğulları ilə görüşüb. Burada döyüş növbətçiliyinin təşkili, şəxsi heyətin qayğıları ilə yaxından maraqlanıb.

Nazirliyin idarə rəisi döyüşçülərin məişət şəraiti ilə tanış olduqdan sonra onlarla səmimi söhbət edib. Təcrübəli zabit postlarımıza baş çəkib, əsgərlərə təhlükəsizlik qaydalarına riayət etməyin zəruriliyindən danışıb.

Təbii ki, ixtisas və taktiki hazırlıqla yanaşı, mənəvi-psixoloji hazırlıq da ordunun döyüş qabiliyyətinin ayrılmaz tərkib hissəsidir. Yalnız yüksək döyüş hazırlığına malik bölmələrdə şəxsi heyətin mənəvi hazırlığı da yüksək olur. Xoşdur ki, bu gün Azərbaycan Ordusunun zabit, gizir və əsgərləri yüksək mənəvi keyfiyyətlərə sahib olaraq Vətənimizin hər qarışını göz bəbəyi kimi qorumağa, işğal edilmiş torpaqlarımızı azad etməyə hazırdırlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Cəmşid Naxçıvanski - 120*

# Sərkərdənin yubileyi qeyd olunub

Naxçıvan Qarnizonunun Zabitlər Evində hərb tariximizin tanınmış simalarından olan Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyi münasibətilə tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Gənclər Fondunun təşkilatçılığı ilə keçirilən tədbiri Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Azad Cəfərov açaraq görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətindən danışıb.

Bildirilib ki, Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2015-ci il aprelin 9-da imzaladığı sərəncam ilə tədbirlər planı təsdiq edilib. Tədbirlər planına əsasən, muxtar respublikada hərb tariximizin unudulmaz simalarından olan Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbirləri keçirilir. Bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirakı ilə keçirilən yubiley tədbiri də bu qəbildəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, hərb tariximizin yetirdiyi görkəmli şəxsiyyətlər sırasında Naxçıvanskilərin öz yeri var. Kəngərlilər nəslinin davamçılarından olan Naxçıvanskilər həm dövlətçilik, həm də hərbi sahədə mühüm xidmətlər göstərərək adlarını milli tariximizin səhifələrinə yazdırıblar. Onlardan biri də sonuncu Kəngərli generalı Cəmşid Naxçıvanskidir. Cəmşid Naxçıvanskinin ömür yolu bu gün gənclərimiz, eyni zamanda, hərb peşəsinin incəliklərini öyrənən kursantlarımız üçün əsl nümunədir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev çıxış edərək bildirib ki, Cəmşid Naxçıvanski 1915-ci ilin martında tatar (azərbaycanlı) süvari polkunda həqiqi hərbi xidmətə başlayıb. 1920-ci ildə ikinci Qarabağ süvari polkunun komandiri təyin edilib. Ona böyük bir riskli iş tapşırılır: Qarabağdakı Əsgəran qalasını erməni daşnaklarından təmizləmək. O, həmin ilin aprelin 12-dək Ağdamı və Xankəndini, eləcə də Şuşanı erməni quldurlarından təmizləyib. Cəmşid Naxçıvanski 1921-ci ildə Azərbaycanın ilk milli atıcı diviziyasını yaradıb və həmin diviziyaya komandir təyin olunub.

Vurğulanıb ki, görkəmli hərb xadiminin adı yalnız ulu öndər Heydər Əliyevin təşəbbüsü nəticəsində əbədiləşib. 1971-ci ildə Moskvanın əsassız cəhdlərinə baxmayaraq, Bakı şəhərində respublika hərbi təyinatlı orta internat məktəbi yaradılıb və Cəmşid Naxçıvanskinin adı bu məktəbə verilib. Sonralar məktəb hərbi liseyə çevrilib. Böyük sərkərdənin adına indi ölkəmizdə hərbi lisey, ev-muzeyi və tam orta məktəb var.

Sonra kursantlar Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətinə həsr olunmuş filmə baxıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***5 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 67 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində, Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərindən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***Düşmənin hiyləgər, məkrli olduğunu biz azərbaycanlılar yaxşı bilirik. Bədnam qonşularımızın bu rəzil keyfiyyətlərini Qarabağ müharibəsi bir daha üzə çıxardı. Ermənilərin öz alçaq məqsədlərinə çatmaq üçün günahsız insanlara qarşı dəhşətli terror aktları törətdikləri hamımıza bəllidir. Bağanıs-Ayrımda, Malıbəylidə, Xocalıda və digər kənd-şəhərlərimizdə düşmənin törətdiyi dəhşətli qırğınları xatırlamaq belə ağırdır.***

# Vətən cəsurları unutmur

Cəbhədə atəşkəs rejiminin tətbiq olunması barədə razılaşma imzalandıqdan sonra da ermənilər öz çirkin əməllərindən qalmır. Tez-tez qoşunların təmas xəttində düşmən sükutu pozur, ordumuzun mövqelərinə güllə və mərmi yağdırırlar. Hələ bu azmış kimi onlar Azərbaycanın təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrini də atəşə tuturlar. Bununla da dinc əhalinin rahatlığı pozulur, ev və təsərrüfatlarına ciddi ziyan dəyir. Müdafiə Nazirliyinin məlumatlarında tez-tez erməni silahlı bölmələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması barədə xəbərlərə rast gəlirik. Bu xəbərlərdə Tovuz rayonunun Əlibəyli, Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Qapanlı, Ağstafa rayonunun Köhnə Qışlaq kəndlərinin adları daha çox çəkilir. Ən acınacaqlısı isə odur ki, mülki insanlar düşmən tərəfdən atılmış güllə və mərmilərdən həlak olur və ciddi xəsarət alırlar.



Məsələn, ötən ilin avqustunda düşmənin atəşkəsi pozması nəticəsində Köhnə Qışlaq kəndinin sakini, 8 yaşlı Qoşqar Abbasov boyun nahiyyəsindən qəlpə yarası alaraq ağır yaralanmışdı.

2015-ci il yanvarın 24-də isə Əlibəyli kəndinin sakini Ruhiyyə Hüseynova düşmən gülləsindən yaralanmışdı.

Təbii ki, düşmənin bu bədxah əməlləri cavabsız qalmır və ordumuzun bölmələri sərrast atəşlə onları susmağa məcbur edirlər. Düşmən də bu atışmalar nəticəsində itkilərə məruz qalır.

Ən önəmli məsələlərdən biri yaşayış məntəqələrimizi, dinc əhalini düşmənin təxribatlarından qorumaqdır. Bir neçə il öncə Tərtər rayonu Qapanlı kəndi ətrafında sakinləri və onların evlərini erməni silahlı bölmələrinin atdığı güllə və mərmilərdən qorumaq üçün torpaq sədd çəkilmişdi.

- Yağıntı və küləyin təsirindən həmin sədd çöküb, - bizimlə söhbətində zabit Nurlan Axundov bildirdi. - Düşmən yenə kənd sakinlərinin dincliyini tez-tez pozur. Ona görə torpaq səddinin bərpasına ehtiyac yaranmışdı. Həmin ərazidə işləmək üçün buldozerçi göndərmək zərurəti yarandı. Hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Etibar Kazımova səddin bərpası ilə bağlı vəzifələr tapşırıldı. Biz bu vacib işi cəsur buldozerçiyə həvalə etdik. Onu qeyd edim ki, Etibar çox intizamlı, vəzifəsini bilən və verilən tapşırıqları dəqiq yerinə yetirən bir döyüşçü idi. Təəssüflər olsun ki, bu tapşırıq Etibar Kazımov üçün sonuncu oldu.

Həmin gün kəndi düşmən atəşindən mühafizə etmək üçün torpaq səddin möhkəmləndirilməsilə məşğul idi. Bu zaman erməni bölmələri qəflətən kəndi güllə yağışına tutdu. Qəfil güllələrdən biri ona dəydi və Etibar Kazımov düşmən tərəfindən atılmış güllənin qurbanı oldu. Cəsur Vətən oğlunu doğulduğu Goranboy rayonunun Səfikürd kəndində hörmət və ehtiramla torpağa tapşırdılar. Dəfn mərasimində Etibarın xidmət etdiyi hərbi hissənin zabit və əsgərləri, yaxınları, rayon ictimaiyyəti, keçmiş döyüşçülər də iştirak etmişdilər.

Etibarın bu ilin sentyabrında 30 yaşı tamam olacaqdı. Ancaq xain düşmənin açdığı atəş yenicə ailə qurmuş bir gəncin həyatını yarımçıq qoydu.

İstiqanlı, mehriban, ürəkli, cəsur bir döyüşçü olan Etibar komandir və silahdaşları arasında qısa zamanda hörmət qazanmağı bacarmışdı. Onun itkisi zabit və əsgərləri dərindən kədərləndirmişdi.

- Etibar Kazımov öz davranışı, mədəniyyəti, intizamı və bacarığı ilə seçilən bir hərbçi idi, - zabit Vüqar Şıxlinski deyir. - Belə bir Vətən oğlunu itirmək təkcə onun valideynləri, qohumları üçün deyil, hərbi hissəmiz üçün, dost və silahdaşları üçün də ağırdır. Allah ona rəhmət eləsin, əziz xatirəsi həmişə qəlbimizdə yaşayacaq.

Etibar kimi Vətən oğullarının intiqamı, təbii ki, yerdə qalmayacaq. Ordumuzun hər bir döyüşçüsü torpaqlarımızın işğaldan azad edilməsi, şəhidlərimizin qisasını almaq üçün intiqam hissilə alışıb yanır, Ali Baş Komandanın döyüş əmrini gözləyir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Erməni KİV-ləri: "Ermənistan fəlakət vəziyyətinə düşüb"



Rusiyanın "REGNUM" informasiya agentliyində əsasən erməni dilində çıxan Yerevan KİV-lərinin şərh yerləşdirilib. Şərhdə deyilir ki, "Çorrord İşxanutsyun" qəzetinin yazdığına görə, Ermənistan hakimiyyəti "Ermənilərin soyqırımının 100 illiyi" mövzusunu ölkənin siyasi gündəliyinin birinci məsələsinə çevirib. Məqalə müəllifi yazır: "Hakimiyyət tərəfindən diktə edilən gündəliklə Ermənistan Respublikasının və onun vətəndaşlarının gündəliyi arasında ümumi heç nə yoxdur. Ermənistanın və onun vətəndaşlarının gündəliyi tamamilə başqadır, ölkə fəlakətli vəziyyətə düşüb, Serj Sarkisyanın hakimiyyəti isə uçuruma yuvarlanmanı dayandırmaq iqtidarında deyil. Sosial-iqtisadi durumdan çox danışılır, hakimiyyət vəd edilmiş 4 faizlik iqtisadi artımı təmin edə bilmir və yalnız 2,5 faiz artımdan danışır".

### Tunisdə dünyanın ən böyük dövlət bayrağı hazırlanıb



Tunisdə dünyanın ən böyük dövlət bayrağını nümayiş etdirmək üçün xüsusi olaraq bu şəhərin cənubundakı Ong Jmel səhrası seçilib.

Bu münasibətlə keçirilən tədbirə minlərlə tunisli və xarici turist qatılıb. Ağ və qırmızı rəngli bayrağın ümumi sahəsi 104.544 kvadratmetrdir. Bayraq 80 kilometrlik parçadan hazırlanıb, ümumi çəkisi 12,6 tondur.

Tunislilər dövlət bayraqlarının Ginnesin Rekordlar kitabına düşəcəyinə əmindirlər.

### Almaniyada öldürücü Ebola virusuna yoluxmuş şəxs hospitala yerləşdirilib




Almaniyanın Hamburq şəhərində Ebola xəstəliyinin xarakterik simptomlarının müşahidə olunduğu 28 yaşlı kişi hospitala yerləşdirilib. AZƏRTAC Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, Serra-Leonedən Hamburqa gələn bu şəxs yüksək hərarət və qusma əlamətləri ilə həkimlərə müraciət edib. Bundan sonra o, təcili olaraq karantinə alınıb.

Bir qədər əvvəl Dünya Səhiyyə Təşkilatı Qərbi Afrikada ölümcül Ebola virusunun yayılmasını beynəlxalq səviyyəli fövqəladə vəziyyət kimi qiymətləndirmişdi.

### Kiprin yunan və türk icmaları liderlərinin görüşü gözlənilir



Cənubi Kipr prezidenti Nikos Anastasiadis mayın 11-də kiprli türklərin yeni lideri Mustafa Akıncı ilə görüşəcək. Görüşün təşəbbüskarı BMT baş katibinin xüsusi müşaviri Espen Bart Eydedir.

AZƏRTAC RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, mayın 4-dən 12-dək adada səfərdə olacaq xüsusi müşavir bu müddət ərzində Kipr probleminin nizamlanması üzrə hərtərəfli danışıqların bərpası məqsədi ilə hər iki liderlə ayrı-ayrılıqda görüşlər keçirəcək.

Xatırladaq ki, 1974-cü ildə Kiprin Yunanıstana birləşdirilməsi cəhdlərinin ardından Türkiyə Silahlı Qüvvələri adanın şimalını nəzarət altına almış və nəticədə 1983-cü ildə Şimali Kipr Türk Cümhuriyyəti qurulmuşdu.

### Yunanıstan həbsxanalarının birində qiyam baş verib



Yunanıstanın paytaxtı Afina şəhərində yerləşən həbsxanaların birində baş verən qiyam nəticəsində ən azı 2 məhbus həlak olub, 21 nəfər isə yaralanıb.

AZƏRTAC RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, qiyam Afinanın qərbində yerləşən Korydallos həbsxanasında baş verib. Albanlardan və pakistanlılardan təşkil olunmuş iki qrup arasındakı toqquşmada əldəqayırma silahlardan istifadə edilib. Mübahisənin hansı səbəbdən yarandığı bilinmir.

Hadisə yerinə bir neçə təcili tibbi yardım maşını cəlb olunub. Yaralananlardan 8-nin vəziyyətinin ağır olduğu bildirilir.

### Kosta-Rika sahillərində göyərtəsində 180 ton ammonium nitratı olan gəmi batıb



Kosta-Rikanın Sakit okean sahillərində göyərtəsində 180 ton ammonium nitratı daşıyan gəmi batıb. Bununla əlaqədar ölkədə yüksək - qırmızı həyəcan səviyyəsi elan edilib.

AZƏRTAC Vesti.ru saytına istinadla xəbər verir ki, ammonium nitrat dəniz faunasına, həmçinin insan sağlamlığına təhlükə törədir. Odur ki, qəzanın baş verdiyi əraziyə yaxın yerlərdə yaşayan insanlara dənizdə çimmək və balıq tutmaq qadağan edilib.

Hadisənin qeydə alındığı rayon turistlər arasında populyar məkandır. Onların bir çoxu artıq kurort zonasını tərk etməyə başlayıb. Yerli hökumət iri maliyyə qaynağından məhrum olacağından ehtiyatlanır.

### Aviasərnişinlər baqajı mobil telefon vasitəsi ilə izləyə biləcəklər



Beynəlxalq reyslər həyata keçirən aviaşirkətlər və aeroportlar üç ildən sonra sərnişinlərə baqajı canlı izləmək imkanı verməlidirlər.

Rusiya KİV-lərinin yazdığına görə, bunu Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) tövsiyə edir.

Sorğuların nəticələrinə görə, aviasərnişinlər öz baqajının vəziyyəti haqqında məlumat almaq istəyirlər. Aviaşirkətlərin 66 faizi bu xidməti 2017-ci il üçün işə salmağı planlaşdırır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Silahlı Qüvvələrdə ümumordu iməciliyi keçirilib

***Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatında qeyd olunduğu kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü və Böyük Vətən müharibəsində qələbənin 70 illik yubileyi münasibəti ilə mayın 2-də Silahlı Qüvvələrdə ümumordu iməciliyi keçirilib. Təsdiq edilmiş plana əsasən, ümummilli liderimiz Heydər Əliyevin abidələrinin yerləşdiyi ərazilərdə, guşələrdə abadlıq və tərtibat işləri aparılıb, yaşıllıqlara qulluq göstərilib, müxtəlif növ ağac və gül kolları əkilib.***

***Əməkdaşlarımızın müxtəlif bölgələrdən və hərbi hissələrdən hazırladıqları yazıları təqdim edirik.***






Maddi-Texniki Təminat Baş İdarəsində ümumordu iməciliyi keçirilib. Tədbirdə Maddi-Texniki Təminat, Müdafiə Sənayesi, Satınalma və Təchizat, Mənzil-İstismar qurumlarının şəxsi heyəti iştirak edib. İməcilik başlamazdan öncə Müdafiə nazirinin müavini, Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-mayor Qorxmaz Qarayev şəxsi heyət qarşısında çıxış edərək bildirib ki, bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü və Böyük Vətən müharibəsində qələbənin 70 illik yubileyi münasibətilə Müdafiə nazirinin əmri ilə hərbi qulluqçuların ümumordu iməciliyi keçirilir. Bununla əlaqədar Baş İdarənin tabeliyində olan hərbi hissə, anbar və bazalarda müvafiq tədbirlər planı hazırlanıb və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi təmin edilib.

Yüksək əhval-ruhiyyədə olan hərbi qulluqçular hərbi vətənpərvərlik mahnılarının sədaları altında ərazidə təmizlik və abadlıq işləri aparıb, 240 ədəd müxtəlif növ ağac və gül kolları əkib, yaşıllıqlara qulluq göstəriblər.

* * *

Silahlı Qüvvələrin birlik və birləşmələrində olduğu kimi, mayın 2-də Hərbi Polis İdarəsinin kollektivi də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü və Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 70 illik yubileyinə həsr olunmuş iməcilik tədbiri keçirilib. Əvvəlcə Hərbi Polis İdarəsinin rəhbər heyəti xalqımızın böyük oğlu Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymaqla onun xatirəsini yad edib. Tədbirdə ilk çıxış edən polkovnik Azad Ağayev bildirib ki, dövlətimizin möhkəmlənməsində və inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olub. "Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü bütün beynəlxalq hüquqi sənədlərdə öz əksini tapmışdır", - deyə natiq onun ordu quruculuğu sahəsində də məqsədyönlü siyasətindən ətraflı danışıb.

Hərbi Polis İdarəsinin rəisi Böyük Vətən müharibəsi illərində Azərbaycanın qəhrəman övladlarının göstərdiyi şücaətlərdən də söhbət açıb və faşizm üzərində qələbənin təmin edilməsində Azərbaycan xalqının misilsiz xidmətlərini xatırladıb.

Polkovnik-leytenant Dəyanət Allahyarov Bakı Qarnizonu Hərbi Polisində ümumqarnizon iməciliyinin tədbirlər planını açıqlayıb. Qruplara ayrılan hərbi qulluqçular Bakının Sabunçu və Nərimanov rayonları ərazisindəki qardaşlıq məzarlarında, Sovet İttifaqı Qəhrəmanları Həzi Aslanovun və Mehdi Hüseynzadənin xatirəsinə ucaldılmış abidələrin önündə, tam artilleriya generalı Əlağa Şxlinskinin məzarı ətrafında təmizlik-abadlıq işləri aparıblar. Həmçinin Hərbi Polis İdarəsinin ərazisində ağacəkmə kompaniyası həyata keçirilib.

* * *

Silahlı Qüvvələrimizin bütün qoşun növlərində olduğu kimi, hava hücumundan müdafiə təyinatlı hərbi hissələrdə də ümumordu iməciliyi keçirilib. Polkovnik-leytenant Bünyam Hümbətovun redaksiyamıza verdiyi məlumata görə, "N" hərbi hissəsinin həyətində həmin gün xeyli abadlıq işləri görülüb. Ağac və gül kollarına qulluq göstərilib, səkilərdə abadlıq işləri həyata keçirilib. "Bütün hərbi qulluqçular iməcilikdə həvəslə iştirak ediblər, yaşıllıqlara qayğı isə hamının ürəyindən olub. Belə nəcib tədbirlərin keçirilməsi təqdirəlayiq hadisədir", - deyə zabit bildirib.

* * *

Abadlıq, səliqə, yaşıllıq yaratmaq xalqımızın nəcib ənənələrindən biridir. Silahlı Qüvvələrimizdə də bu ənənəyə diqqət göstərilir. Məhz bu baxımdan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci, Böyük Vətən müharibəsində qələbənin 70 illiyi ilə əlaqədar mayın 2-də hərbi hissə və birləşmələrdə ümumordu iməciliyi keçirilib. Hər bir hərbi qulluqçu bu vacib əhəmiyyətli tədbirdə ruh yüksəkliyi ilə iştirak etməsini həm də özünə bir mənəvi borc bilib.

İməcilik günü "N" hərbi hissəsində də böyük canlanma şəraitində keçirilib.

Tədbiri giriş sözü ilə polkovnik İlqar Lətifov açaraq şəxsi heyətə iməciliyin mahiyyətindən danışıb. Qeyd edib ki, hər yerdə olduğu kimi, hərbi hissələrdə də belə tədbirlərin keçirilməsi hərbi qulluqçulara xoş əhval-ruhiyyə bəxş edir.

Sonra polkovnik Münasib Babayev, "N" hərbi hissəsinin əsgəri Murad Əsədov və başqaları çıxış edərək belə tədbirlərin davamlı olmasını arzulayıblar.

Həmin gün hərbi qulluqçular ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan guşədə və digər sahələrdə abadlıq, səliqə-sahman işləri görüblər, ağaclar əkiblər. Bir sözlə, hər kəs xidmət etdiyi hərbi hissədə abadlığın, səliqə-sahmanın təmin edilməsində, nəticə etibarilə Müdafiə nazirinin müvafiq göstərişinin yerinə yetirilməsində əməyini əsirgəməyib.

* * *

"N" hərbi hissəsində də iməcilik keçirildi. İməciliyə bütün şəxsi heyət cəlb olunmuşdu.



Hərbi hissənin ərazisinə daxil olanda burada böyük canlanma var idi. Zabit və əsgərlər əllərində bel yer qazır, ağac əkir, ərazidə yaşıllaşdırma işləri aparırdılar.

- Hərbi hissəmizin şəxsi heyəti iməcilikdə böyük coşqu ilə iştirak edir, - deyə polkovnik-leytenant Ziyad Tağıyev bildirdi. - Hərbi hissənin ərazisində xeyli ağac və gül kolları əkildi. İməcilikdə mayor İlqar Nəhmədov, əsgərlərdən Afiq Hüseynov, Orxan Fərmanov, Oruc Yusifov, Elsevər Abdullayev və başqaları fəallıq göstərdilər. Zabitin sözlərinə görə, iməcilik ərzində hərbi hissənin ərazisində yeni yaşıllıq salınıb.

* * *

May ayı Azərbaycan xalqının tarixində bir sıra önəmli hadisələrlə əlamətdardır. Ölkəmizə bir qərinədən artıq rəhbərlik etmiş və dövlətimizin tərəqqisinə böyük töhfələr vermiş dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyev 92 il öncə mayın 10-da dünyaya gəlib.

Bəşəriyyətin üzərini qara bulud kimi almış və milyonlarla insanın məhvinə səbəb olmuş faşizm üzərində qələbə də mayın 9-da qeyd edilir.

Bu əlamətdar hadisələr hər il ordumuzda da hörmət və ehtiramla qeyd edilir.

Mayın 2-də "N" hərbi hissəsində böyük öndərin anadan olmasının 92-ci ildönümü və faşizm üzərində qələbənin 70 illik yubileyi münasibətilə öncə şəxsi heyətin iştirakı ilə tədbir keçirildi.

Mərasimdə çıxış edən zabit Namiq Cavadov ümummilli lider Heydər Əliyevin hər bir azərbaycanlı üçün örnək olan zəngin həyat yoluna və ölkəmizin tərəqqisində böyük iz buraxmış çoxşaxəli dövlətçilik fəaliyyətinə, o cümlədən ordu quruculuğu sahəsində gördüyü tarixi işlərə nəzər saldı.

Zabit Niyazi Dadaşov isə çıxışında faşizm üzərində qələbənin qazanılmasına Azərbaycan xalqının verdiyi töhfələrdən söhbət açdı.

Sonra hərbi qulluqçular Beyləqan şəhərində ulu öndərin və İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidələrin önünə gül-çiçək düzdülər.

Hərbi hissənin şəxsi heyəti abidələrin yerləşdiyi parklarda iməcilik keçirərək səliqə-sahman yaratdı, abadlıq işlərilə məşğul oldu və yeni ağaclar əkdi.

İməcilikdə "N" hərbi hissəsinin şəxsi heyəti və Beyləqan qarnizonu hərbi polisinin nümayəndələri iştirak edirdilər.

İməcilikdən sonra İkinci Dünya müharibəsinin iştirakçısı, azərbaycanlılardan ibarət əfsanəvi 416-cı Taqanroq diviziyasının tərkibində Mozdokdan Berlinədək döyüş yolu keçmiş Manur Hüseynovla hərbçilərin maraqlı görüşü keçirildi. Müharibə veteranı öz döyüş yolundan maraqlı epizodlar danışdı və dəyərli tövsiyələrini verdi.

* * *

Böyük coşqu ilə keçirilən iməcilikdə Silahlı Qüvvələrin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivi də fəal iştirak edib. Həmkarlar İttifaqının üzvləri həmin gün görkəmli hərbi xadim, ölkəmizdə 150 illiyi böyük təntənə ilə qeyd edilən general-leytenant Əlağa Şıxlinskinin məzarı ətrafında abadlıq işləri görüblər. Generalın məzarının baş tərəfinə üçrəngli bayrağımız asılıb və üstünə gül-çiçək dəstələri düzülüb. Görkəmli hərbi xadimin ruhuna dualar oxunub.

Sonra onlar abadlıq işləri aparmaq üçün ikinci Şəhidlər xiyabanına yola düşüblər.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyət Ağadadaşova bildirib ki, kollektivimiz hörmətli Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iməcilik keçirilməsi ilə bağlı əmrini böyük ruh yüksəkliyi ilə qarşıladı. Əvvəlcə görəcəyimiz işlərin planını hazırladıq. Görkəmli hərbi xadim Əlağa Şıxlinskinin məzarı ətrafında abadlıq işlərini başa çatdırdıq və ikinci Şəhidlər xiyabanında ağac və gül kolları əkib abadlıq işləri apardıq.

Öncə torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın məzarları üzərinə qərənfillər düzdük və şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad etdik. Belə iməciliklərin keçirilməsi çox təqdirəlayiqdir. Biz də iməcilik günü Xiyabanda abadlıq işləri apardıq, ağac və gül kolları əkdik. Komitəmizin nümayəndələri hərbi hissə və birləşmələrdə də keçirilən iməciliklərdə iştirak ediblər.

* * *

Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, mayın 2-də Şəmkir bölgəsində yerləşən hərbi birlik və birləşmələrdə xalqımızın böyük oğlu, əbədiyaşar komandan Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Böyük Vətən müharibəsində qələbənin 70 illiyinə həsr olunmuş iməcilik keçirilib. İməcilik bölgədə yerləşən bütün hərbi hissələri əhatə edib. Ulu öndərin adını daşıyan park və xiyabanlarda, 20 Yanvar abidə-komplekslərində, Qələbə parklarında, Şəhidlər xiyabanlarında hərbi qulluqçular rayon ictimaiyyətinin nümayəndələri ilə birgə ağacəkmə kompaniyasında iştirak edərək orada təmizlik və abadlıq işləri görüblər.

Gəncə şəhərində keçirilən iməcilikdə ərazidə yerləşən hərbi hissələrin şəxsi heyəti böyük fəallıq göstərib. Ulu öndərin adını daşıyan Park-Kompleksdə əlamətdar günə həsr olunmuş tədbirdə hərbi orkestrin ifasında vətənpərvərlik mahnıları ifa olunub. Digər bölgələrdə də texniki-təbliğat vasitələri ilə ulu öndərə, xalqa və Vətənə həsr olunmuş mahnılar səsləndirilib.







Gəncə şəhər sakini, Belorusiyanın faşizmdən azad edilməsi uğrunda döyüşlərdə fərqlənmiş Böyük Vətən müharibəsi veteranı Tofiq Hüseynov veteranlar adından bildirib ki, ölkə rəhbərinin təşəbbüsləri, Müdafiə Nazirliyi rəhbərliyinin birgə təşkilatçılığı ilə keçirilən mədəni-kütləvi tədbirlər, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində görülən işlər bizi daim sevindirir. Veteran qeyd edib ki, bugünkü tədbir də ümummilli liderimiz Heydər Əliyev ideyalarına, tarixi ənənələrimizə sədaqət və ehtiramın parlaq nümunəsidir.

**"Azərbaycan Ordusu"**

# "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda açıq dərs

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda açıq dərs keçirilib.***

AZƏRTAC xəbər verir ki, muzeyin direktoru Ramil Orucəliyev ulu öndərin mənalı həyatı və genişmiqyaslı siyasi fəaliyyəti barədə kursantlar qarşısında çıxış edib.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilib. Onun Azərbaycanda ilk dəfə hakimiyyətdə olduğu 1969-1982-ci illər tariximizə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəliş dövrü kimi daxil olub. O illərdə dövlət həyatının bütün sahələrində misli görünməmiş canlanma baş verib, qısa müddətdə Azərbaycan əsrə bərabər inkişaf yolu keçib.

Vurğulanıb ki, azərbaycançılıq məfkurəsinin yaradıcısı kimi ulu öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının reallaşdırılmasına, müasir Azərbaycan dövlətinin qurulmasına nail olub.

Sonra liseyin kursantları Heydər Əliyev Muzeyindəki eksponatlarla tanış olublar.

*Qələbə - 70*

# Gənclərə örnək

XX əsrin əvvəllərində Azərbaycan SSRİ adlı dövlətin ayrılmaz bir hissəsi idi. Bu dövlətin hüdudları daxilində yaşayan bütün xalqlar dostluq, qardaşlıq devizi ilə, bir bayraq altında birləşdirilmişdi. Faşist Partiyasının rəhbəri Hitler "İldırım sürətli müharibə" planı ilə 1941-ci il iyunun 22-də SSRİ-yə hücuma keçdi. Və SSRİ adlı dövlətin vətəndaşları ümumi Vətənin müdafiəsinə qalxdılar. Genlərində ulu babalarının qəhrəmanlıq xüsusiyyətlərini daşıyan xalqımızın mərd övladları bu müharibədə qəhrəmanlıq nümunələri göstərdilər. Beş il çəkən bu sarsıdıcı, dağıdıcı müharibə Vətən eşqi ilə döyüşən insanların həmrəyliyi, igidliyi, mətinliyi səbəbindən qələbə ilə başa çatdı.

Azərbaycanın dağlar diyarı Lerikin Rəzgov kəndində doğulub boya-başa çatan Daşdəmir Kazım oğlu Paşayev də bu mərd övladların biri oldu. Müharibə başlananda 16 yaşı vardı, orta təhsilini başa vurmamışdı. Daşdəmir də yaşıdları kimi təhsilini yarımçıq qoyub Bakıya, peşə məktəbinə göndərildi və 5 saylı peşə məktəbində sənətə yiyələnib neft sahəsində çalışmağa məcbur oldu. O zaman Azərbaycan nefti müharibədə döyüşən texnikanı yanacaqla təmin edən əsas baza idi. Ona görə neft sahəsində çalışanları müharibəyə aparmırdılar. Lakin Daşdəmir Paşayev 18 yaşı tamam olmamış, 1943-cü ilin aprelində ön cəbhəyə yollandı. Az müddətdə təlim keçərək Belorusiya uğrunda gedən döyüşlərə qatıldı. İgid, mərd, vətənsevər bir əsgər kimi döyüşçü yoldaşlarına nümunə sayıldı. 1943-cü ilin noyabrında ağır yaralandı. Amma dörd ay müalicə olunub, özünü yenidən döyüş yoldaşlarına çatdırdı və Riqa şəhərinin azad olunması uğrunda gedən döyüşlərə qoşuldu. 1944-cü il avqustun 21-də yenidən ağır yaralandı. Böyük Vətən müharibəsi əlili kimi doğma yurda döndü.

Nəhayət, Lerik rayon milis (indiki polis) idarəsində işə düzəldi və qiyabi yolla təhsilinə davam etdi. Müharibədə nümunəvi əsgər olan Daşdəmir ikinci cəbhədə "serjant" kimi xidmət edərək bacarığı, qorxmazlığı, zirəkliyi sayəsində özünə nüfuz, hörmət qazandı. İctimai asayişin qorunmasında ayıq-sayıqlığı ilə fərqləndi. Dözümü, qətiyyəti, səbri, əziyyəti, gərgin zəhməti hesabına pillə-pilə uğur qazandı, baş əməliyyat müvəkkili və polis rəisinin müavini kimi vəzifələrin öhdəsindən layiqincə gələrək polkovnik-leytenant rütbəsinə qədər yüksəldi.

İki cəbhənin fədaisi olan bu insanın yaxasını bu gün saysız-hesabsız orden və medallar bəzəyir. Onun şəkli Daxili İşlər Nazirliyinin "Şərəf lövhəsi"ndə nümunəvi polis



zabiti kimi özünə yer tutub.

Daşdəmir Paşayev 67 ildir ki, ömür sürdüyü həyat yoldaşı Tahirə xanımla birgə doqquz övlad - səkkiz qız, bir oğul böyüdüb, boya-başa çatdırıb. Hazırda onun 35 nəvəsi, 40-dan çox nəticəsi var. 90 yaşlı ağsaqqal bütün övladlarını öz adına layiq, vətənpərvər ruhda tərbiyə edib.

Ləyaqətli, vicdanlı polis zabiti kimi nüfuz, hörmət sahibi olan Daşdəmir Paşayevin təqaüdə çıxmaq vaxtı çatanda bacarığı, geniş təcrübəsi, işgüzarlığı nəzərə alınaraq polis sisteminə cəlb olunan gənclərin hazırlanması üçün ona bir neçə il də əlavə olaraq polis sistemində xidmət etməyi həvalə etdilər.

Təqaüdə çıxandan sonra, xidməti dövründə şahidi olduğu hadisələri, bildikləri məlumatları gələcək nəsillərə çatdırmaq qərarına gəldi. 2003-cü ildə "Lerik polisinin tarixindən" kitabını yazdı. Bu kitabdakı məlumatlar Daxili İşlər naziri Ramil Usubovu da maraqlandırdı. O, kitabı bəyəndiyinə görə Daşdəmirlə şəxsən görüşdü, onu mükafata layiq gördü. D.Paşayevin 2005-ci ildə "Qisas və özünəqəsd", 2009-cu ildə "Ulu kəndim Rəzgov", 2012-ci ildə "Keçmişə boylananda" kitabları çapdan çıxdı. Bu kitablarda Lerik polisinin tarixində olan mühüm məqamlardan, özünəqəsdin səbəblərindən, mühüm tarixi hadisələrdən və tarixi şəxsiyyətlərdən, cinayətkar ünsürlərə qarşı mübarizədən bəhs edərək oxucu marağına səbəb oldu.

Daşdəmir Paşayevin Böyük Vətən müharibəsi veteranı kimi döyüşlərdə sağlamlığını itirməsi, buna baxmayaraq var qüvvəsi ilə dinc sakinlərin asayişinin keşiyində polis zabiti kimi xidmətlərinə görə Daxili İşlər Nazirliyi ilə Lerik rayon İcra Hakimiyyəti rəhbərliyinin təşkilatçılığı ilə Böyük Vətən müharibəsinin ildönümündə 90 illik yubileyinin keçirilməsi təşkil olunub.

İki cəbhənin igid veteranı, təqaüddə olan polis zabiti polkovnik-leytenant Daşdəmir Paşayevi yubileyi ilə əlaqədar təbrik edirik. Ona sağlam ömür, yaradıcılıq uğurları diləyərək, "100 yaşını qeyd edək", - deyirik.

**Dəstəgül ZAMANLI**

Leytenant Süleymanov Vaqif Məmməd oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 441
Nüsxə 4600